# *Xocalıda erməni vandalizminə məruz qalan abidələrimiz*



Xocalı rayonu noyabr ayının 26-sı 1991-ci ildə yaradılmışdır. Sahəsi 0,936 min kvadrat kilometr olan rayona 1 şəhər, 2 qəsəbə, 50 kənd daxildir. Ağdam şəhərinin 18, Xankəndi şəhərinin 14 kilometrliyində, Qarabağ silsiləsində yerləşir.

Xocalı tarixən insanların yaşayış məskəni olmuşdur. Rayon ən qədim dini, memarlıq və mədəniyyət abidələri ilə zəngindir. Xocalının yaxınlığında bizim e. ə. XIV-VII əsrlərə aid edilən Xocalı-Gədəbəy mədəniyyəti abidələri yerləşir. Burada son bürünc və ilkin dəmir dövrlərinə aid olunan dəfn abidələri - daş qutular, kurqanlar və daş kitabələr tapılmışdır. Rayon ərazisində arxeoloji abidələr - dairəvi qəbir (1356-1357-ci illər) və mavzoley (XIV əsr) də vardır. Arxeoloji qazıntılar zamanı müxtəlif növ daş, bürünc və sümükdən hazırlanmış bəzək əşyaları, eləcə də, gildən bişirilmiş saxsı ev əşyaları və s. tapılmışdır.

**Tarixi-dini abidələri**

Dairəvi məbəd (1356-1357-ci illər) – Xocalı şəhəri (İNV № 251)
Alban məbədi (905-ci il) – Şuşa kəndi. (İNV № 255)
Alban məbədi (1100-cü il) – Çanaxçı kəndi (İNV № 253)
Alban məbədi (1065-ci il) – Çanaxçı kəndi (İNV № 254)
Alban məbədi (1100-cü il) – Xaçmas kəndi (İNV № 257)
Alban məbədi (1122-ci il) – Xansıx kəndi (İNV № 256)
Alban məbədi (1202-ci il) – Armudlu kəndi (İNV № 258)
Məbəd kompleksi (VII əsr) – Badara kəndi (İNV № 261)
Kilsə (XIII əsr) – Xanabad kəndi (İNV № 265)
Günbəz – Xocalı kəndi
Qədim tarixə malik olan Alban abidələri – Xocalı kəndi
Qədim Alban kilsəsinin qalıqları – Kərkicahan qəsəbəsi
"Börgün qayasında olan kilsə" alban kilsəsi – Meşəli kəndi
"Yeddi kilsə" Alban kisəsi – Meşəli kəndi
"Durpasuda olan kilsə" Alban kilsəsi – Meşəli kəndi
"Balaca suda olan kilsə" Alban kilsəsi – Meşəli kəndi
"Əvəzin yurdunda olan kilsə" (Alban kilsəsi) – Meşəli kəndi

**Ziyarətgahları**

Səkkizgüşəli günbəz ziyarətgahı (XIII əsr)
Xocalı qəbiristanı e. ə. VIII-VII əsrlər
Seyid Cəlal ağanın ocağı – Xocalı şəhəri
Cahan nənə ocağı – Xocalı şəhəri
Qaranın ocağı – Kərkicahan qəsəbəsi
Darılı piri – Kosalar kəndi

**Tarixi memarlıq və arxeoloji abidələri**

Daş qutu nekropolu (Tunc dövrü) - Xocalı şəhəri, Əsgəran dağında (İNV № 1119)
Nekropol (İlk və Orta Tunc dövrü) - Xankəndindən cənubda (İNV № 1120)
Küp qəbirlər nekropolu (ilk orta əsrlər) - Xankəndinin kərpic zavodunun ərazisində (İNV № 1121)
Kurqan (Dəmir dövrü) - Xankəndinin yaxınlığında (İNV № 1122)
Xankəndi kurqanları (Tunc dövrü) - Xankəndinin şimalında (İNV № 1123)
Xaçınçay nekropolu (İlk və Orta Tunc dövrü) – Seyidşən kəndindən şimal-şərqdə (İNV № 1124)
Küp qəbirlər nekropolu (Tunc dövrü) - Armudlu kəndindən 2 km. İlis kəndinə tərəf (İNV № 1125)
Kurqan (Tunc dövrü) - Armudlu kəndindən 15 km. İlis çayının sahilində (İNV № 1126)
Daş qutu nekropolu (Dəmir dövrü) – Armudlu kənd qəbiristanlığının yanında (İNV № 1127)
Daş qutu nekropolu (Dəmir dövrü) – Saruşen kəndi (İNV № 1129)
Daş qutu nekropolu (Dəmir dövrü) - Saruşen kəndi, dağın ətəyində (İNV № 1130)
Köhnə qəbiristan (Tunc dövrü) - Çanaqçı kəndi (İNV № 1128)
Qala (X əsr) – Maşxmaat kəndi (İNV № 259)
Aslan qalası (IX əsr) – Anabert kəndi (İNV № 264)
Qırxlar qalası (orta əsrlər) – Badara kəndi (İNV № 260)
Qoç və yəhər şəkilli qəbir daşları – Xocalı kəndi

**Haqqna kitab və məqalələr**

**Bayramqızı, Əfsanə.** Narahat ruhların səssiz harayı [Mətn]: Bəşəriyyəti sülh və ədalətə səsləyən Xocalı abidələri /Ə.Bayramqızı //Xalq qəzeti.- 2018.- 25 fevral.- S.4.

**Bayramova, Zümrüd.** Dünya ölkələrindəki Xocalı abidələri bəşəriyyəti cinayətkar ermənilərin vəhşiliyi ilə tanış edir [Mətn] /Z.Bayramova //Səs.-2018.- 25 oktyabr.- S.10.

**Cəfərov, Hidayət**. Xocalı arxeoloji abidələr kompleksləri: I qrup kurqanlar [Mətn] /H.Cəfərov //Azərbaycan Arxeologiyası // Xəzər Universiteti.-2016.- C.19, №1.- S.46-56.

**Cəfərov, Hidayət.** Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinin ikinci inkişaf dövrü abidələri: Xocalı kompleksinin ikinci tip kurqanları [Mətn] /H.Cəfərov //Azərbaycan MEA-nın Xəbərləri: İctimai elmlər seriyası.-2016.- №4.- S.73-78.

**Əlizadə, Ramin.** Xocalının tarixi-mədəni mirası [Mətn] /R.Əlizadə //Respublika.-2022.- 1 mart.- S.7.

**Qarabağlı, Rizvan. (Babaşov Rizvan Sarı oğlu)** Xocalının əsir abidələri [Mətn] /R.Qarabağlı //Elm.- 2020.- 16 oktyabr.- S.9.

**Qasımov, Fərman.** Xocalı soyqırımı abidələri: [Mətn] hekəltəraş Natiq Əliyevin yaradıcılığında /F.Qasımov //Mədəni həyat.- 2014.- № 8.- S. 82-85.

**Qədirova-Atəşi, Nuridə**. Xocalı-Gədəbəy mədəniyyətinin maddi irsi: ilk kompleks nəşri və təhlili [Mətn] : (Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında) : [monoqrafiya] /N. Qədirova-Atəşi ; elmi red. V. Baxşəliyev ; [ön söz. N. Vəlixanlı].- Bakı: [Aspoliqraf LTD], 2019.- 638, [2] s.

**Quliyev, Etibar Dilqəm oğlu.** Xocalı - sağalmaz yaram mənim [Mətn] : [kitab Xocalı soyqırımının iyirminci ildönümünə həsr edilir] /E. Quliyev, A. Dilqəmqızı, D. Quliyev.- Bakı: Mütərcim, 2012.-120, [3] s.

**Məmmədzadə, Gülməmməd**. Xocalı abidələri [Mətn] /G.Məmmədzadə //Azərbaycan.-1991.- 20 iyun.

**Mükərrəmoğlu, M.** Xarici ölkələrdəki Xocalı soyqırımı abidələri [Mətn] /M.Mükərrəmoğlu //Xalq qəzeti.-2021.- 24 fevral.- S.6.

**Nərimanoğlu, Məhəmməd**. Xocalının məhv edilən maddi-mədəniyyət abidələri [Mətn] /M.Nərimanoğlu //Azərbaycan.-2013.- 27 fevral.- S.5.

**Nəcəfov, Şamil Nadir oğlu.** Yastitəpə yaşayış yerinin gil məmulatı [Mətn] /Ş. N. Nəcəfov //Azərbaycan arxeoloqiyası və etnoqrafiyası.- 2014.-№2.- S.57-68.

**Sarıyeva, İradə.** Dünya ölkələrində sayca artan Xocalı abidələri - ən yeni dövlətçilik tariximizin tutarlı faktları... [Mətn] /İ. Sarıyeva //Bakı Xəbər.- 2021.- 27 fevral.- 1 mart.- S.10.

**Şəkərli, Şəmşad.** Xocalı tarixi və mədəniyyəti [Mətn] /Ş.Şəkərli //Palitra.- 2019.- 11 yanvar.- S. 13.

**Tarixin Gədəbəy-Xocalı mədəniyyəti mərhələsi: Unikal abidələr məskəni** [ Mətn] //Azadlıq.- 2011.- 24 iyun.- S.14.











